Bölgə iqtisadiyyatı

# Qış turizminin üfüqləri

**Uşaq idik. Qarlı havalarda məhəlləmizin hündür yerində xizəyə oturur, küçənin aşağısına qədər sürüşürdük. Bakıya qar yağmayanda isə bu əyləncədən məhrum olurduq. Kimin ki, dağlıq bölgələrdə qohumları, doğmaları vardı, onun bəxti gətirirdi. Biri elə mən özüm. Ata yurdum Şamaxıda kənd uşaqları ilə xizəkdən o qədər istifadə etmişəm ki... Həmişə də idman verilişlərində qış idman növlərinə baxanda "görəsən, bizdə nə zaman belə məkanlar yaradılacaq?" – deyə fikrə getmişəm.**

Gün gəldi, zaman yetişdi, Azərbaycanda da qış turizmi yaranıb inkişaf etməyə başladı. İndi artıq ölkəmizdə bu sahəyə xeyli sərmayə qoyulur, qış əyləncələri üçün şərait yaradılır.



Ötən illərdə jurnalist həmkarlarımızla "Tufandağ" və "Şahdağ" Qış-Yay Turizm Kompleksində dincəlib, kanatdan və xizəkdən istifadə etmişik. Azərbaycanımızın ən gözəl yerlərindən biri olan Qusar və Qəbələ təbiətinin zənginliklərini kanatda seyr edərək, qarlı zirvələrin əhatəsində özümüzü qanad açıb uçan quş kimi hiss edirdik. Xizəklə sürüşməyə başlayanda sanırdıq ki, qış turizminin inkişaf etdiyi ABŞ-da, Kanadada və ya Rusiyadayıq.





İsti ölkələrdən sayılan Azərbaycanda qış turizminə keçidi bir çoxları hətta qəribə qarşılayırdı. Amma indi Qusar və Qəbələdəki turizm-əyləncə mərkəzləri qış istirahəti üçün ideal məkanlar sayılır. Təsadüfi deyil ki, ölkə rəhbəri İlham Əliyev ilk dəfə Qusar rayonunda Dağ-Xizək Kurort Kompleksinin açılışında bu istirahət obyektinin yaradılmasını tarixi hadisə adlandırıb. Prezident deyib ki, dövlət Azərbaycanın bu sahədə də dünyada qabaqcıllığı ilə seçilməsinə çalışır. Qusar və Qəbələdən savayı, Göygöl və Gədəbəydə yaradılan istirahət guşələri də göstərir ki, ölkəmizdə qış turizminin təşkili üçün hər cür imkan var. Şamaxı, Quba, Şəki və Lerik rayonları da bu baxımdan perspektivli bölgələrdir. Son illər sosial şəbəkələrdə respublikamızın müxtəlif bölgələrinə səyahət turpaketlərinə də rast gəlirik. Əlbəttə, şəxsi avtomobillərlə səyahətə getməkdənsə, turpaketlərdən istifadə daha əlverişlidir.

Amma, onu da qeyd edim ki, son iki-üç ildə ölkəmizdə qış turizmi xeyli zəifləyib. Ekspertlər bunu koronavirus pandemiyasının yaratdığı çətinliklər və Vətən müharibəsi ilə izah edirlər. Amma bu məsələdə qiymətlərin baha olması da qeyd edilməlidir. Adamlar fikirləşirlər ki, bölgələrimizə səyahət üçün xərclədiyi məbləğə Türkiyədə və yaxud Gürcüstanda daha yaxşı istirahət edə bilər. Dünya Turizm Təşkilatının statistikasına əsasən, hər il səyahət etmək istəyənlərin, təxminən, 30–35 faizi istirahət mərkəzlərinə məhz qış aylarında üz tuturlar. İsveçrə, Skandinaviya ölkələri, Çexiya, ABŞ, Kanada və Rusiya qış turizminin inkişaf etdiyi ölkələr sırasındadır. Niyə bizdə də olmasın? Axı bunun üçün Azərbaycanın yaxşı potensialı var. İnanaq ki, bizə məkanın gözəlliyi ilə yanaşı, xidmət keyfiyyəti yüksək, qiymətləri əlçatan olacaq.

Bu gün Azərbaycanda qış turizminin, eləcə də digər turizm növlərinin coğrafiyasını genişləndirmək üçün ötən ilin noyabrında 30 illik erməni işğalından azad edilmiş Qarabağ və ətraf rayonlarda da imkanlar az deyil. Şuşa, Kəlbəcər, Laçın və Zəngilanda qış turizmini gözəl perspektivlər gözləyir. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizə səfərlərində bildirib ki, biz erməni qəsbkarlarının darmadağın etdiyi şəhər və kəndlərimizi əsl cənnətə çevirəcəyik. Belə olduğu təqdirdə yaxın gələcəkdə bu yerlərə böyük turist axınının olacağı heç kəsdə şübhə doğurmur.

Beləliklə, turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi bu gün Azərbaycanda qarşıda duran başlıca vəzifələrdəndir. Azərbaycanda turizmin inkişafına dair dövlət proqramının sayəsində bu yöndə mühüm işlər görülüb. Amma regionlarda, o cümlədən, mikro və kiçik biznes subyektləri seqmentində turizm və qonaqlama xidmətləri göstərən müəssisələrin və fərdi sahibkarların sayı artmalı, bu sahədə rəqabət güclənməlidir.

*Anar TURAN,*
*"Xalq qəzeti"*